# Könüllülərimiz Türkiyədə fəaliyyətlərini davam etdirirlər







Baş vermiş dəhşətli təbii fəlakətdən zərər çəkən qardaş türk xalqına kömək məqsədilə Kahramanmaraşa yollanan Azərbaycan könüllüləri ötən gün fəal şəkildə çalışıblar.

Gənclər Fondunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kahramanmaraş şəhərinin mərkəzində Azərbaycan könüllüləri çadır qərargah məntəqəsinin salınmasını başa çatdırıb və paylama (təminat) mərkəzini qurublar. Bundan əlavə, Azərbaycan könüllü gəncləri şəhərin müxtəlif ərazilərində yerləşən yemək paylama mərkəzlərində yeməklərin çeşidləmə, paketləmə və paylama prosesində fəal iştirak ediblər. Həmçinin könüllülərimizin bir qrupu yerli əhalinin mobil telefonları üçün enerji təminatına imkan yaradan enerji yükləmə mərkəzində xidməti həyata keçiriblər. Eləcə də tibb təhsilli könüllülərimiz Türkiyə Gənclər Fondunun (TÜGVA) səyyar aptekində xidmət göstərib, habelə TÜGVA-nın yaxınlıqdakı zərərçəkmiş kəndlərə göndərilən səyyar qruplarının tərkibində səfər edib, müvafiq yardımların paylanmasında fəal şəkildə iştirak ediblər.

Qeyd edək ki, könüllü nümayəndə heyətimiz Türkiyə Respublikası Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) 10 min nəfər zərərçəkmiş şəxsin yerləşdirildiyi çadır düşərgəsində də olublar. Növbəti günlərdə gigiyenik malların paylanılması və uşaqların əylənməsi və psixoloji yardım almaları üçün 2 ədəd iri çadırımızın həmin düşərgədə quraşdırılması razılaşdırılıb.

Həmçinin könüllü nümayəndə heyətimiz Türkiyədə olan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) qərargahına baş çəkib, səlahiyyətli şəxslərlə müvafiq görüş keçirib və əlaqələndirmə müzakirələri aparıblar.

Ötən gün ərzində Azərbaycan Gənclər Fondunun rəhbərliyi ilə bir daha görüşən TÜGVA rəhbərliyi könüllülərimizin göstərdikləri fədakarlığa görə təşəkkürlərini bildirib. Görüş zamanı Azərbaycan könüllüləri ilə Türkiyə könüllüləri arasında fəaliyyətlərin effektiv əlaqələndirilməsi üzrə geniş müzakirələr aparılıb.



Azərbaycan. - 2023.- 15 fevral.- S. 6.